İədalət.- 2020.- 26 noyabr.- S.4.

# ŞƏHİDLİK UCALIĞINDA VƏTƏN SEVGİSİ

**"Xalqımızın igid oğullarından biri, korpus komandirinin müavini polkovnik Babək Səmidli Suqovuşanda minaya düşərək şəhid oldu..." Bu acı xəbər noyabrın 23-də ölkəmizin hər yerinə yayıldı. Mənfur düşməni ağır məğlubiyyətlərə uğradıb təslim olmağa məcbur edən Müzəffər Ordumuzun qəhrəman zabitlərindən birini xalqımız Qələbə sevinclərini yaşayan zaman itirdi.**



Göyçayın, bütün Azərbaycanın Babəki şəhid oldu!

O, çıxışlarında, telemüsahibələrində həyat amalını zatən elə bu məqamla diqqətə çatdırırdı: "Müqəddəs vətən torpaqlarımızı işğalçılardan azad etmək, bu yolda ya qazi, ya da şəhid olmaq!"



Bütün varlığı ilə Xalqını, Vətənini, Ali Baş Komandanını sevən, uğurunda canından keçməyə hər zaman hazır olan Babək də şəhidlik zirvəsinə ucaldı. Bu zirvə onun qisməti, alın yazısı imiş. 46 yaşında, daha böyük qələbələrin, rütbələrin, mükafatların bir addımlığında...

Mən onu uşaqlıqdan tanıyırdım. Atası Mətləb həkimlə 50 ildən çoxdur dostluq edirik. Bir yaşda olsaq da onu həmişə özümə böyük qardaş bilmişəm. Əslində bunun başqa bir səbəbi də Mətləbin ali məktəbin elə birinci kursundaca ailə qurması idi. Mənim kimi tay-tuşlarından 8-10 il tez. Babək orta məktəbin son siniflərində oxuyarkən qeyri-adi xarakterə malik çəlimsiz bir uşaq idi. Bu ailənin, eləcə bütövlükdə Osmanovlar nəslinin özünəməxsusluğu, hər kəsə xüsusi diqqət və təmkinlə yanaşması, sovet dövründə belə azad vətən və türkçülük ideyalarına açıq-gizli rəğbəti onlara bütün mənalarda hörmət qazandırırdı. Belədə yalnız xeyirxah əməllərlə yaşayıb heç vaxt heç kəsin xətrinə dəyməyən, ancaq vətən və xalq uğrunda güzəştsiz olan qardaşım Mətləbin oğlu necə olmalı idi ki? Məhz belə bir igid, belə bir vətən oğlu, belə bir şəhid. Vətən torpaqlarımızın, doğma Qarabağımızın işğaldan azad edilməsində döyüşən, yaralanan, şəhid olan hər bir əsgər və zabitimiz böyük hörmət və ehtirama layiqdir. Onlar Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın yeni tarixini yazan igid oğullarımızdır. Bu 44 günlük müharibə zamanında arxa cəbhə də Silahlı Qüvvələrimizlə birgə olduğunu öz xeyirxah əməlləri və can yanğısı ilə sübut etdi. Bu möhtəşəm birliyi daha da möhkəmlədən, dünya nümunəsinə çevirən, müharibənin və dinc dövrün yeni əxlaq normalarını müəyyənləşdirən mənim xalqım, mənim ordum və mənim ölkəmin rəhbəridir.

***...Və həm də Babək kimi oğulları olan ölkənin də haqq yolunu heç vaxt, heç kim kəsə bilməzdi!***

Babək hərbi təhsilini qardaş ölkədə, Türkiyədə almışdı. Vətənə qayıtdıqdan sonra (Türkiyədə vətəndir, baxın, bütün Azərbaycan bu iki qardaş ölkənin bayraqları ilə bəzənib) şəhid olan günə kimi həmişə vətəninə, xalqına sədaqətlə xidmət edib. Babəkin yolu həmişə irəliyə doğru olub. O, harada xidmət edibsə tabeçiliyində olan döyüşçüləri güclü, vətənpərvər olmağa səsləyib, onların hər birini qardaş kimi sevib və qoruyub. Babəkin özünü də eləcə çox seviblər, adını uca tutublar həmişə.

...Göyçayda bütün şəhidlər böyük ehtiramla son mənzilə yola salınıb. Göyçay Rayon İcra Hakimiyyəti rəhbərliyinin fəaliyyəti bu mənada nümunəvidir. Münasibətdə başqa nüanslar da var. Qarabağ uğrunda döyüşlərə könüllü gedənlər sırasında da Göyçay rayonu, göyçaylı gənclər çoxluq təşkil edirlər.



***24 noyabr səhəri mənə uzaq 1968-ci ilin iyul ayını xatırlatdı. Eləcə bir məqamı ilə. O vaxt 18 yaşına çatmış göyçaylı bir gəncin xatirəsində böyük şairimiz Əli Kərimin dəfn mərasimindəki izdiham görünməmiş bir hadisə idi. İndi də polkovnik Babək Səmidlinin dəfn mərasimidir. Babəkin ata yurduna gələn küçələr, yollar səhər saat 10-a qalmış çətinliklə keçilir. Minlərlə göyçaylı, Müdafiə Nazirliyinin, eləcə 1-ci Ordu korpusunun yüzlərlə hərbi qulluqçusu, döyüşçüsü, hərbi orkestrin üzvləri, yüksək vəzifəli və yüksək rütbəlilər, o cümlədən Babəki özünün sağ əli, qardaşı adlandıran korpus komandiri general-mayor Hikmət Həsənov və başqaları...***



...52 il uzaqlığın bu fantastik assosiasiyasını bir röya kimi yaşayıb da indiki izdihama qovuşuram.

...Babəkin atası Mətləb həkim, Babəkin məktəbli oğlanları, qardaşı hərbi-hüquqşunas Müşfiq, gözə görünən bütün ailə üzvləri içdən nə qədər ağrı-acılı olsalar da başlarını dik tutub sanki hamıya "Vətən sağ olsun!" deyirlər.

Burada bir məqamı xüsusi vurğulamalıyam. Mənim əziz dostum, şəhid atası Mətləb həkim xəstə olmasına və övlad itkisinin ağrısını yaşamasına baxmayaraq, bir an belə qürurundan düşmür. O böyük, o vətənsevər, o mərd insanla fəxr edirəm. Mətləb öz duruşu ilə sanki bir qürur dərsi keçirdi...

...Şəhidlər xiyabanında dini ritualllar başa çatınca yol boyu söylənən öymələr təkrarlanmağa başlandı. Xüsusilə "Şəhidlər ölməz, Vətən bölünməz!, Şəhidlər ölməz, Vətən bölünməz!, Şəhidlər ölməz, Vətən bölünməz!!!"

İgid polkovnikin məzarı başında çıxışlar oldu, şeirlər oxundu. 1-ci Ordu korpusunun komandiri general-mayor Hikmət Həsənovun və Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadənin çıxışlarındakı şəhidlərin ölməzliyi və xalqımızın birlik nümunəsi gələcək günlərimizin daha böyük zəfərlərə doğru olduğuna təbii və inamlı mesajlar idi. Müdafiə Nazirliyinin hərbi orkestri Azərbaycan himnini səsləndirir. Şəhid polkovnik Babək Səmidli ana torpağa tapşırılır.

***Şəhidlər doğrudan da ölmür. İndən belə Babəki Azərbaycanın Müqəddəs Bayrağı və Müqəddəs Vətən Torpağı qoruyacaq.***

Dəfn mərasiminə gəlib bu hadisəninin iştirakçısı olan Babəkin döyüş yoldaşları, sağ olun, sizlər bu vətəni qoruduqca Babək də sizinlə birlikdə olacaq.

Onun saf, təmiz, məhrəm ruhu həmişə sizi gözləyəcək. Sizə atılan düşmən gülləsi hardasa boşa çıxarsa, bax həmin anda Babək kimi igid oğullarımızın ana torpaqdan dikəlmiş şəhid ruhları sinələrini o güllələrə sipər edəcəklər.

...Bütün Azərbaycan əbədi olaraq şəhidləri ilə öyünəcək, bütün Azərbaycan həmişə bir olacaq!

**Şəhidlərimizin ruhu başımız üzərindədir!**

**Məzahir ƏHMƏDZADƏ**